# Behbud ağa Şahtaxtinski və Naxçıvanda ictimai-siyasi vəziyyət

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Görkəmli dövlət xadimi və diplomat Behbud ağa Şahtaxtinskinin 130 illik yubileyinin keçirilməsi haqqında" 2011-ci il 21 fevral tarixli Sərəncamına əsasən Azərbaycanın ictimai-siyasi həyatında, dövlətçilik tarixində özünəməxsus yeri və rolu olan Behbud ağa Şahtaxtinskinin həyatı, siyasi və diplomatik fəaliyyəti ilə bağlı araşdırmalar aparılır, yeni tədqiqat materialları üzə çıxarılır, mətbuatda onunla bağlı yazılar dərc olunur.

Azərbaycan dövlətçiliyinin və xarici siyasətinin görkəmli nümayəndəsi, Azərbaycan SSR Xalq Ədliyyə Komissarı, Xalq Fəhlə-Kəndli Müfəttişliyinin komissarı və XKS sədrinin müavini, Naxçıvan İnqilab Komitəsinin və XKS-nin sədri kimi mühüm dövlət vəzifələrində işləyən Behbud ağa Şahtaxtinskinin 1918-1922-ci illərdə Naxçıvanda Ermənistandan qovulmuş qaçqınların taleyinin həll edilməsində əvəzsiz xidmətləri olmuşdur. 1918-1920-ci illərdə daşnakların Naxçıvana aramsız hücumları nəticəsində bölgənin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatı ağır vəziyyətə düşmüşdü. İrəvandan, Zəngəzurdan, Vedibasardan, Dərələyəzdən qovulmuş 500 min müsəlmanın böyük bir hissəsinin Naxçıvana pənah gətirməsi burada ictimai-siyasi vəziyyəti daha da mürəkkəbləşdirmişdi.



Behbud ağa Şahtaxtinskinin Naxçıvan Qaçqınlar Komitəsinin sədri kimi 1919-cu il dekabrın 3-də bölgə general-qubernatoruna göndərdiyi məktubda qaçqınların siyahıya alınmasının başa çatdığı və tabeçiliyində olan qəzalardakı qaçqınların sayının 39005 nəfər olduğu bildirilmişdi.

Eyni zamanda həmin məktubda Behbud ağa Şahtaxtinski Naxçıvandakı qaçqınların ağır vəziyyətindən geniş bəhs edərək, onların fəlakətlə üz-üzə olduğundan, çoxunun açıq havada gecələdiyi və otlarla qidalandıqlarından, soyuqların düşməsi ilə qaçqınların bu imkandan da məhrum olduqlarından yazırdı. Qeyd edirdi ki, hər gün 40-a qədər insan dünyasını dəyişir. Xəstələri isə saymaqla qurtarmır. 40 min qaçqının sonsuz bir uçurumun kənarında ölüm təhlükəsi qarşısında olduğunu bildirən Behbud ağa Şahtaxtinski,–əgər tezliklə mərkəzdən təcili və real kömək gəlməsə, onların hamısı son nəfərinə kimi məhv olacaq,–deyə xəbərdarlıq edirdi.

Həmin dövrdə Azərbaycan Xalq Cümhuriyyəti Naxçıvanın taleyi ilə maraqlanırdı. Təkzibedilməz faktdır ki, özünün parlament yığıncaqlarında Naxçıvandakı vəziyyət barədə məsələni müzakirə edir və əməli tədbirlər görürdü.

O illərdə məhz Behbud ağa Şahtaxtinskinin Qaçqınlar Komitəsinin sədri kimi faydalı və səmərəli fəaliyyəti nəticəsində qaçqınların maddi təchizatı xeyli yaxşılaşdırılmış və qısa müddət ərzində 15 min nəfər qaçqının qəza mərkəzlərində və bir sıra kəndlərdə açılmış pulsuz yeməkxanalarda qidalanması təmin edilmiş, Naxçıvan, Şərur, Şahbuz və Ordubadda yetim qalmış uşaqlar üçün sığınacaqlar açılmışdır.

Hətta Qaçqınlar Komitəsinin müraciətindən sonra Naxçıvan qaçqınlarına yardım göstərmək, yetimxanalar, yeməkxanalar, məktəblər və sair təşkil etmək üçün Rusiyanın Qırmızı Xaç Cəmiyyəti özünün Zaqafqaziyadakı nümayəndəliyi vasitəsilə pul, ərzaq və dava-dərman ayırmışdı. Lakin Gürcüstanın menşevik hökuməti bu əmlakı və pulu müsadirə etmişdi.

Behbud ağa Şahtaxtinski 1920-1922-ci illərdə Azərbaycanda ən yüksək vəzifələrdə (Xalq Ədliyyə Komissarı, Xalq Fəhlə-Kəndli müfəttişliyinin komissarı və sair) işləyərkən belə, Naxçıvandakı ictmai-siyasi vəziyyətlə yanaşı qaçqınların vəziyyəti ilə də bağlı iqtisadi problemlərin həllində təkcə Azərbaycan İnqilab Komitəsinin üzvü, XKS sədrinin müavini kimi deyil, həm də hökumətin Naxçıvan diyarında səlahiyyətli nümayəndəsi kimi yaxından iştirak etmişdi.

Məlum olduğu kimi, 1920-ci il dekabrın 15-də Behbud ağa Şahtaxtinski Azərbaycan İnqilab Komitəsi tərəfindən Naxçıvana göndərildikdən sonra bölgənin Ermənistan SSR tərəfindən işğal edilməsinin qarşısı alınmış və ən mürəkkəb və təxirəsalınmaz qaçqınlar problemi ilə yaxından məşğul olmağa başlamışdır.

1921-ci ilin yanvarında Naxçıvanın belə ağır vəziyyətini nəzərə alan AK(b)P MK-nın Bürosu yenidən Behbud ağa Şahtaxtinskini bu dəfə Hərbi İnqilab Komitəsinin mandatı ilə komissar təyin etdi. Diyarın ictimai-siyasi vəziyyətinə yaxşı bələd olan Behbud ağa Şahtaxtinski Naxçıvanda bir daha xalqın yaşayış səviyyəsi ilə maraqlanmış və onu kökündən öyrənib araşdırdıqdan sonra–1921-ci il aprelin 19-da Azərbaycan İnqilab Komitəsinin iclasında "Naxçıvanın siyasi və iqtisadi vəziyyəti barədə" məruzə etmişdir.

Komitəsinin iclasında "Naxçıvanın siyasi və iqtisadi vəziyyəti barədə" məruzə etmişdir.

Behbud ağa Şahtaxtinskinin bu məruzəsindən sonra Azərbaycan İnqilab Komitəsi və onun sədri Nəriman Nərimanov Naxçıvanı düşmüş olduğu ağır iqtisadi vəziyyətdən xilas etmək, onun əhalisinin çörəyə, ərzaq məhsullarına olan ehtiyaclarını qismən də olsa ödəmək üçün daim yeni mənbələr axtarmış və bu barədə Azərbaycan SSR-in Moskvadakı nümayəndəliyi vasitəsilə RSFSR rəhbərliyinə vaxtaşırı məlumatlar çatdırmışdır.

1920-1921-ci illərdə qaçqınların ardı-arası kəsilmədən Naxçıvana gəlməsi, onların sərgərdan kimi şəhər və kəndləri dolaşması aclıq və işsizliyin, möhtəkirliyin, oğurluğun, dövlət mülkiyyətini talamaq və sair cinayətkarlıq hallarının artmasına səbəb olurdu. Behbud ağa Şahtaxtinski bu halların qarşısını almaq məqsədilə 1921-ci il sentyabrın 25-də Naxçıvan Fövqəladə Komissarı nəzdində oğrularla, möhtəkirlərlə, qaçaqmalçılarla mübarizə aparan yol şöbəsi təşkil etmişdi. Əvvəllər Arazdöyəndən Culfaya qədər səlahiyyət dairəsi olan bu təşkilatın fəaliyyət dairəsi genişlənirdi. Sonralar "əksinqilabla mübarizədə" Naxçıvanın bütün idarə və müəssisələri şöbənin köməyindən istifadə etmişdi.

Görülmüş tədbirlərə baxmayaraq, həmin dövrdə Naxçıvanda yaranmış gərginliyin, qarşıdurmanın aradan qaldırılması üçün xarici dövlətlərin və beynəlxalq təşkilatların da gücündən istifadə edilmişdi. 1921-ci ilin sentyabrından Naxçıvana Zaqafqaziya Diyar Partiya Komitəsinin qərarı ilə hər ay on min pud taxıl göndərilməsi ləng də olsa həyata keçirilirdi.

Göstərilən fakt və rəqəmlərdən göründüyü kimi, Naxçıvan ərazisində 1918-1922-ci illərdə qaçqınların yerləşdirilməsində, onların böyük bir hissəsinin torpaq sahəsi ilə təchiz olunmasında, əhalinin ərzaqla təmin edilməsində Behbud ağa Şahtaxtinskinin əvəzsiz xidmətləri olmuşdur.